# İndoneziya Azərbaycanın sədrliyi dövründə bütün tədbirlərdə aktiv iştirak edəcək

Fevralın 21-də Azərbaycanın və İndoneziyanın Asiya Parlament Assambleyasındakı (APA) nümayəndə heyətləri arasında görüş keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycanın APA-dakı nümayəndə heyətinin rəhbəri Əminə Ağazadə Bakıda keçirilən Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında iştirak edən İndoneziya nümayəndə heyətini salamlayaraq, ölkələrimiz arasında əlaqələrin dinamik inkişaf etdiyini deyib. O, Azərbaycanın APA-nın sədrliyinə namizədliyini dəstəklədiyinə görə İndoneziya tərəfinə təşəkkürünü ifadə edib. Əminə Ağazadə fevralın 7-də Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərindən söz açıb. Bildirib ki, bu seçkilər Azərbaycanın bütün suveren ərazilərində keçirilməsi ilə əlamətdar olub. O, ölkələrimiz arasında əməkdaşlıqdan və parlamentlərarası əlaqələrin inkişaf perspektivlərindən danışaraq münasibətlərin bütün sahələrdə genişləndirilməsinin vacibliyini vurğulayıb.

İndoneziyanın APA-dakı nümayəndə heyətinin rəhbəri Fadli Zon fevralın 7-də Azərbaycanda keçirilmiş prezident seçkiləri, həmçinin ölkəmizin ərazi bütövlüyünü tam bərpa etməsi münasibətilə təbriklərini çatdırıb.

O, ölkələrimiz və parlamentlərimiz arasındakı əlaqələrin daha da möhkəmlənməsinin vacibliyini vurğulayıb. Həmçinin ikitərəfli sosial və mədəni əlaqələrin inkişafının əhəmiyyətini qeyd edib.

Fadli Zon Azərbaycanın APA-ya sədrliyi dövründə təşkilatın daha da möhkəmlənəcəyinə, aktual məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu bildirib. O, diqqətə çatdırıb ki, Azərbaycanın sədrliyi dövründə İndoneziya bütün tədbirlərdə aktiv iştirak edəcək, lazımi dəstəyi göstərəcək.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 22 fevral, № 40.- S.2.